# BAŞ REDAKTORDAN

Əziz oxucular!

Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin 50 illik yubileyinin təntənəli şəkildə bayram edildiyi bir dövrdə –1997-ci ilin oktiyabrında ilk nömrəsi ilə sizin görüşünüzə gəlmiş «Kitabxanaşünaslıq və biblioqrafiya» elmi-nəzəri və təcrübi jurnalının xüsusi buraxılışı qarşısındadır. Əlamətdar haldır ki, bu xüsusi buraxılış kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcılarından biri, Azərbaycan kitabxanaşünaslıq elminin banisi, görkəmli alim Abuzər Xələfovun anadan olmasının 70 illiyinə həsr edilir.

Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov həm respublikamızda, həm də ölkəmizdən kənarda çox yaxşı tanınır. Onun Azərbaycanda kitabxana işinin tarixinə, kitabxanaşünaslıq elminin nəzəri və təcrübi problemlərinə, ali kitabxanaçılıq təhsilinə və s. məsələlərə dair çoxsaylı əsərləri mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir və bu gün də kitabxanaşünaslıq elmi ictimaiyyətinin tez-tez müraciət etdiyi dəyərli tədqiqatlarındandır.

Professor Abuzər Xələfovun zəngin elmi-pedaqoji və ictimai fəaliyyəti nəsillərə örnəkdir və öyrənilməyə layiqdir. O, respublikamızdakı müxtəlif tipli və növlü kitabxanalarda fəaliyyət göstərən 5 min nəfərdən artıq kitabxanaçı-bibiloqrafın sevimli müəllimi, bütövlükdə mədəni-maarif işçilərinin ağsaqqalı, kitabxanaşünas-bibiloqraf alimlərin ustadı kimi çox böyük hörmətə layiqdir.

Elm və təhsil sahəsindəki xidmətlərinə görə Azərbaycan kitabxanaşünasları arasında ilkin olaraq müstəqil dövlətimizin «Şöhrət» ordeninə layiq görülməsi professor Abuzər Xələfovun nüfuzunun ucalığını sübuta yetirir.

Fədakar alim, qeyrətli vətəndaş, cəfakeş ziyalı, mahir pedaqoq kimi çox yaxşı tanınan Abuzər müəllim haqqında bu xüsusi buraxılışda onun dostlarının və tələbələrinin ürək sözləri toplanmışdır. İnanıram ki, jurnalımızın bu nömrəsi oxucularımız tərəfindən maraqla qarşılanacaqdır.